*Nigar Abışova*[*]

# Kriminallaşdırma və dekriminallaşdırmanın əsasları

***Annotasiya***
*Məqalədə cinayət məsuliyyətinin əsasında duran fəlsəfi baxışlar, cinayət məsuliyyətinə cəlb edilmənin əsası kimi çıxış edən cinayətin anlayışına dair nəzəriyyələr araşdırılaraq qanunvericiliyimizdə cinayətə verilən anlayışla müqayisə edilmişdir. Eyni zamanda cinayət törədən şəxsin cəzaya məruz qalması nəzərə alınaraq cəzanın məqsədlərinə dair nəzəri fikirlər, onun kriminallaşdırma fəaliyyətində rolu, cinayət hüququnun hüquqi məsuliyyət nəzərdə tutan digər hüquq sahələri ilə fərqli xüsusiyyətləri tədqiq edilmişdir. Nəticədə kriminallaşdırılma və dekriminallaşdırma fəaliyyətində nəzərə alınmalı olan törədilmiş əməlin cinayət hesab edilmə meyarları məqalədə öz əksini tapmışdır.*

***Abstract***
*In this article the philosophical approaches were explored on which the criminal responsibility is based and the definitions of the crime which were given in different theories were compared with the definition in our Criminal Code. Considering that the person who committed a crime will get a punishment, theoretical thoughts about the aims of punishment, its role in the criminalization process and the distinctive features of the criminal law were investigated here. As a result the guiding principles which must be considered in criminalization and decriminalization process are represented in the article.*

## Giriş

Ölkəmizdə cinayət hüququnun yeganə mənbəyi sayılan AR Cinayət Məcəlləsinə qüvvəyə mindiyi tarixdən bu günə qədər bəzi əməllərin məcəlləyə daxil edilməsi, bəzilərinin isə məcəllədən çıxarılması ilə müşayiət olunan, eyni zamanda törədilməsinə görə nəzərdə tutulan cəzanın növü, həddi və həcmində xeyli dəyişikliklər edilmişdir. Cinayət cəmiyyətdə daim mövcud olan məfhum olduğundan cinayət hüququnun maddi mənbəyi hesab etdiyimiz ölkənin siyasi, sosial-iqtisadi əsaslarında baş verən mütəmadi dəyişikliklərin formal mənbə olan cinayət qanununda əksini tapması təbii haldır. Bu dəyişikliklərin xeyli hissəsinin bu və ya digər əməlin məcəlləyə cinayət olaraq daxil edilməsi, bəzilərinin isə məcəllədən çıxarılması ilə bağlı olduğunu nəzərə alsaq, bu əməllərin kriminallaşdırılmasının və ya dekriminallaşdırılmasının hansı əsaslarla həyata keçirilməsi araşdırılmağa layiq məsələ olaraq diqqət çəkir. Məqalədə bu məsələyə aydınlıq gətirmək üçün əməlin cinayət hesab edilməsinin meyarları, cinayət hüquqi tənzimləmənin preventiv funksiyasının həyata keçirilməsinin effektivliyi, o cümlədən hüququazidd əməlin nəticələrinin aradan qaldırılması baxımından hüquqi məsuliyyət nəzərdə tutan digər hüquq sahələrində mövcud olan tənzimləmədən fərqi, o cümlədən kriminallaşdırma və dekriminallaşdırma

[*]Bakı Dövlət Universiteti Hüquq fakültəsi, 3-cü kurs, SABAH qrupu tələbəsi

fəaliyyətinin ölkəmizdə və digər ölkələrdə həyata keçirilməsinin müqayisəsi kimi məsələlərə toxunacağam.

## I. Cinayət – cinayət məsuliyyətinin əsası kimi

İnsan cəmiyyətin üzvü kimi digər insanlarla daim ictimai münasibətdə olub qarşılıqlı vəzifələr daşıyır. Eyni zamanda cəmiyyət üzvlərinin bu münasibətlərlə əlaqədar daşıdığı vəzifələrin yerinə yetirilməməsi səbəbi ilə bir-birini məsuliyyətə cəlb etmək haqqı tanınır.[1]Fəlsəfədə məsuliyyətə əxlaqi baxımdan müəyyən bir hərəkətin şəxsə aidliyinin şərtlərini xarakterizə edən, yəni şəxslə öz davranışı arasındakı əlaqəyə istinad edən səbəblilik və şəxsin digər cəmiyyət üzvləri tərəfindən öz əməlinə görə cavab verməyə cəlb olunması hallarını şərtləndirən , yəni şəxslə onun mənsub olduğu cəmiyyətin qarşılıqlı əlaqəsinə istinad edən cavabdehlik yanaşmaları mövcuddur.[2] Cinayət məsuliyyətinin cinayət əməlinə görə şəxsin sanksiyaya məruz qalmasını nəzərdə tutması bu məsuliyyətin fəlsəfi əsasının cavabdehlik yanaşmasına söykənməsinin göstəricisidir.[3] Belə ki, hüquq ədəbiyyatında cinayət məsuliyyətinin bir əlaməti kimi onu vətəndaşlıqla əlaqələndirərək vətəndaşların siyasi birliyin əsaslarını zədələyən, onun dəyərlərinə qarşı hörmətsizlik ifadə edən əməllərə görə cavabdehlik daşıması fikrinə rast gəlinir və cinayət hüququnun əsas məqsədinin müəyyən növ əxlaqazidd əməlin ümumi maraqlara zərərliliyini müəyyənləşdirərək ona müvafiq cavab tədbirinin tətbiq edilməsi olduğu söylənilir. Eyni zamanda cinayət məsuliyyətinin xüsusi əlaməti kimi törədilən əməlin cəza ilə cavablandırılması göstərilir. Cəzanın qınayıcı xüsusiyyəti isə yalnız xüsusilə ciddi əməllərin bu üsulla sanksiyalaşdırılmasını tələb edir.[4]

Beləliklə, cinayət hüququnun əsasında bir insanın səbəb olduğu, digərinin isə həyatının itirilməsi, bədən xəsarəti alması və ya əmlakının itirilməsi və s. formalarda məruz qaldığı zərərin qarşısını almaq məqsədi dayanır. Bunun üçün zərərə səbəb olan əməlin törədilməsinin çətinliyini artırmağa yönəlmiş tədbirlər həyata keçirilir. İlk növbədə bu, həmin əməlin törədilməsi üçün gözə alınan riskin artırılması üsulu ilə yerinə yetirilir. Digər bir üsul isə zərər vurmuş şəxslərə qarşı əvəzçıxma tədbiri kimi cəzanın müəyyən olunmasıdır. Bundan əlavə, gələcəkdə bu tipli əməlləri törətməsi mümkün olan şəxslərin hərəkətlərinin məhdudlaşdırılması yolu ilə zərər vurulmasının qarşısının alınması üsulundan istifadə olunur. [5]

---

[1] Massimo Renzo, *Responsibility and Answerability in the Criminal Law,* in The Constitution of the Criminal Law, 209, s. 214 (redaktorlar: R. A. Duff, Lindsay Farmer, S. E. Marshall, Massimo Renzo, Victor Tadros 2013)

[2] *Yenə orada*, ss. 209, 210

[3] G. Watson, Two Faces of Responsibility, 24 Philosophical Topics 1996, s. 227 (Massimo Renzo, s. 210 birbaşa)

[4] Renzo, s. 215 (birbaşa)

[5] Larry Alexander, Kimberly Kessler Ferzan and Stephen J. Morse, Crime and Culpability – A Theory of Criminal Law, ss. 3-5

Cinayət hüquqi ədəbiyyatda cinayət hüququnun törədilən əmələ görə bu əməli törətmiş şəxsin cəzaya məruz qalması və cinayət hüquqi mühakimənin qınayıcı xarakter daşıması kimi təməl əlamətləri ilə yanaşı mühakimə olunan şəxsin əsassız olaraq məsuliyyətə cəlb edilməsindən səmərəli müdafiə olunmasını təmin etməsi kimi mühüm funksiyaya malik olması bildirilir. Bu funksiya digər iki əlamətin icrasının təminatıdır.[6] Çünki cinayət törətməsi ehtimal olunan şəxsin ədalətli mühakimə edilməməsi cinayət hüququnun nüfuzunun itirilməsinə və beləliklə, cinayət-hüquqi tədbirlərin çəkindirici funksiyasının səmərəli həyata keçirilməməsinə gətirib çıxarır.

AR-də cinayət məsuliyyətinin əsasını AR Cinayət Məcəlləsinin 3-cü maddəsi müəyyənləşdirir. Belə ki, yalnız bu Məcəllə ilə nəzərdə tutulmuş cinayət tərkibinin bütün əlamətlərinin mövcud olduğu əməlin törədilməsi cinayət məsuliyyəti yaradır. Bu maddədən aydın olur ki, şəxsə qarşı cinayət-hüquqi yurisdiksiyanın tətbiq olunması üçün məhz bu Məcəllədə göstərilmiş əməlin törədilməsi tələb olunur. Elə isə əməlin bu Məcəlləyə cinayət əməli olaraq daxil edilməsinin əsasları nədir? Nəyə görə hüquq pozuntusu hesab edilən, əxlaqi baxımdan qınanmaya məruz qalan bütün əməllər cinayət əməli kimi qiymətləndirilmir?

Qərbdə cinayət hüququnun hüdudlarının genişlənməsi və mahiyyətcə cinayət sayılmayacaq əməllərin kriminallaşdırılması nəticəsində şəxslərin ədalətsiz şəkildə cəzanın yaratdığı məhrumiyyətlərə məruz qalması, o cümlədən cinayət hüququ ilə digər hüquq sahələrinin sərhədlərinin bu kimi fəaliyyət nəticəsində itməsinə dair fikirlər mövcuddur.[7] Bəzi müəlliflər reallıqda kriminallaşdırmanın vahid ölçüsünün olmadığını,[8] bu səbəbdən meydana çıxa biləcək həddindən artıq kriminallaşdırma fəaliyyətinin hüquq qaydasının özünə dağıdıcı təsir göstərərək onun nüfuzunun aşağı düşməsinə, vətəndaşların bu qayda və tənzimləmələrə etinasız yanaşaraq ondan yan keçməsinə yol açdığını[9] bildirirlər. Bu səbəbdən kriminallaşdırma fəaliyyətinin söykənəcəyi vahid prinsiplərdən ibarət kriminallaşdırma nəzəriyyəsinin yaradılmasını təklif edirlər.[10] Bu fikirləri nəzərə alsaq, ilk növbədə hər hansı bir əməlin cinayət sayılmasının meyarlarını müəyyənləşdirmək lazımdır.

Roman-german hüquq sisteminin formalaşmasında əsas rol oynamış ölkələrdən biri olan Almaniyanın cinayət hüququnun əsas nəzəriyyələrindən olan Rechtsgut cinayət hüququnun əsas məqsədinin və cinayət hüquqi xarakterli zərərin müəyyən edilməsində təməl rol oynayır. Belə ki, bu

[6] Victor Tadros, *Criminalisation and Regulation*, University of Warwick Law School Legal Studies Research Paper No. 2009-08, s. 3

[7] John C. Coffee, JR, *Does ''Unlawful'' Mean ''Criminal''?: Reflections on the Disappearing Tort/Crime Distinction in American Law,* 71 B.U. L. Rev. 193, s. 193 (1991)

[8] Douglas Husak, Overcriminalization The Limits of the Criminal Law (2008), s. 8

[9] *Yenə orada*, ss. 12-13

[10] *Yenə orada,* s. 18

nəzəriyyəyə əsasən hüquqla qorunan nemətlərin müdafiəsi cinayət hüququnun əsas funksiyasını təşkil edir. Bu nemətlərə zərər yetirməyən istənilən əməl kriminallaşdırılmamalı və cinayət hüququnun hüdudlarından kənarda qalmalıdır. Bu nemətlər elə nemətlərdir ki, onlar insanın cəmiyyətdə mövcudluğu üçün olduqca zəruri rol oynayır və onlar cəza institutunun tətbiqi vasitəsilə dövlətin məcburedici gücü ilə qorunmalıdır. Bu nəzəriyyəyə normativ baxışa əsasən nəzəriyyə qanunvericiyə nəyin cəzalandırmalı olduğuna və ya nəyin cəzadan kənarda qalmalı olduğuna dair istiqamət verir.[11] Alman alimi Feyerbax cinayəti fərdin subyektiv hüquqlarına zərər yetirən əməl kimi qiymətləndirir. Onun əksinə olaraq Birnbaum cinayətə bu cür yanaşmanın olduqca məhdud olduğunu əsas gətirərək cinayətin təkcə fərdlərin hüquqlarına deyil, ümumilikdə dövlət tərəfindən müdafiə edilən nemətlərə təcavüz edən və ya buna təhlükə yaradan əməl olduğunu bildirirdi. Bu baxış nəticə etibarilə cinayət sayılan əməllərin sayını artıraraq kriminallaşdırma fəaliyyətinin genişləndirilməsinə əsas verdi. Belə ki, XIX əsr müəlliflərindən olan Karl Bayndinqin fikrinə əsasən insanın mövcudluğu üçün əsas olan nemətlərin qanunverici tərəfindən öz səlahiyyətinə əsaslanaraq qanuni qadağalar şəklində müəyyən edilmiş normalarla qorunduğu qənaətinə gəlinmişdir.[12] Klaus Roksinin fikrincə, Rechtsgut konsepsiyası Almaniya Konstitusiyasında sadalanan fərdlərin əsas haqlarına əsaslanan hüquqi dövlətin məqsədlərindən qaynaqlanır. Bu anlayış həqiqi cinayət növlərinin legitimləşdirilməsinə, dövlətin cəzalandırıcı gücündən kənarda qalmalı olan əməllərin isə dekriminallaşdırılması nəticəsinə gətirib çıxarır.[13]

Digər bir müəllif konstitusiyada sadalanmasına və ya dərin ənənəvi və ya tarixi köklərə malik olmasına görə fundamental sayılan azadlıqları məhdudlaşdıran qanunların əhəmiyyətli dərəcədə dövlətin məcburedici maraqlarına cavab verməli olmasından və qeyri-fundamental azadlıqları məhdudlaşdıran qanunların dövlətin məqsədlərinə cavab verəcək rasional mahiyyətə malik olmalı olduğundan[14] törədilməsinə görə cəza vasitəsilə şəxsi məhrumiyyətə məruz qoyacaq əməllərin kriminallaşdırmasında da dövlətin məcburedici marağının zəruri olmasını irəli sürür. Bundan əlavə o, cəzanın qınayıcı mahiyyətini nəzərə alaraq yalnız qınanmağa layiq əməllərin kriminallaşdırılmalı olmasını, hər bir cinayət hüquq normasının əhəmiyyətli dərəcədə vurulan zərərin qarşısını almağa yönəlməli olduğunu bildirir.[15]

---

[11] Markus Dirk Dubber, *Theories of Crime and Punishment in German Criminal Law*, Buffalo Legal Studies Research Paper Series No. 2005-02, ss. 4-5

[12] *Yenə orada* s. 7

[13] *Yenə orada* ss. 8-9

[14] Douglas Husak, *Limitations on Criminalization and the General Part of Criminal Law, in* Criminal Law Theory: Doctrines of the General Part 13, ss. 21,22 (eds. Stephen Shute, A. P. Simester, 2002)

[15] *Yenə orada* s. 45

AR Cinayət Məcəlləsinin 14.1-ci maddəsinə əsasən bu Məcəllə ilə cəza təhdidi altında qadağan olunmuş ictimai təhlükəli əməlin (hərəkət və hərəkətsizliyin) təqsirli olaraq törədilməsi cinayət sayılır. Sadalananları nəzərə alsaq əməlin ictimai təhlükəliliyi dedikdə bu əməlin dövlətin məcburedici gücü vasitəsilə qorumaqda maraqlı olduğu obyektlərə əhəmiyyətli dərəcədə zərər vurması başa düşülməlidir. Dövlətin cinayət hüquq normaları ilə qorumaqda maraqlı olduğu obyektlər AR Cinayət Məcəlləsinin 2.1-ci maddəsində sadalanan sülh və insanlığın təhlükəsizliyi, AR Konstitusiyasının 3-cü fəslində sadalanmış insan və vətəndaşın əsas hüquq və azadlıqları, mülkiyyət, iqtisadi fəaliyyət, ictimai qayda və ictimai təhlükəsizlik, ətraf mühit, AR konstitusiya quruluşu olaraq müəyyənləşdirilib. Deməli, əməlin cinayət hesab olunması üçün ilk növbədə bu obyektlərə əhəmiyyətli zərər vurması, cəzanın qınayıcı təsirinə məruz qalmağa layiq olması zəruridir.

Anlayışdan göründüyü kimi cinayət əməlinin ilkin əlaməti kimi onun cəza təhdidi altında törədilməsi göstərilib. Cinayət törətdiyinə görə şəxsə məcburiyyət tədbiri kimi cəzanın tətbiq edildiyini nəzərə alsaq, hansı əməllərə görə cəza tətbiqinin müəyyənləşdirilməsinin, yəni cəzanın kriminallaşdırma fəaliyyətində rolunun aydınlaşdırılması vacibdir.

## II. Cəzanın kriminallaşdırma fəaliyyətində rolu

AR Cinayət Məcəlləsinin 41.1-ci maddəsinə əsasən ***cəza*** *məhkəmə hökmü ilə təyin edilən cinayət-hüquqi xarakterli tədbirdir. Cəza cinayət törətməkdə təqsirli hesab edilən şəxsə tətbiq olunur və həmin şəxs barəsində bu Məcəllə ilə müəyyən edilən məhrumiyyətlər yaradılmasından və ya onun hüquq və azadlıqlarının məhdudlaşdırılmasından ibarətdir*. Maddənin məzmunundan da aydın olduğu kimi cəza tətbiq edilən şəxs bir sıra məhrumiyyətlərə məruz qalır. Məsələn, qanunvericiliyimizə əsasən cinayət törətmiş şəxslərə cərimə tətbiq edildikdə o, əmlakından, nəqliyyat vasitəsini idarə etmə hüququndan məhrum edildikdə o, bu hüququndan, nəhayət ən ciddi cəza növü olan azadlıqdan məhrumetmə cəzasına məruz qaldıqda insana məxsus ən ali nemət olan azadlığından məhrum olur. Üstəlik cəzanın tətbiqi təkcə şəxsin cəza çəkdiyi müddət üçün deyil, həm də bundan sonrakı dövrdə onun üçün müəyyən məhrumiyyətlər yaradır. Belə ki, cəzanın tətbiqi hüquqi nəticə olaraq məhkumluq yaradır ki, bununla da şəxs gələcəkdə müəyyən vəzifə tutmaq hüququnu itirir və sosial həyatda bir sıra çətinliklərlə üzləşir. Odur ki, hər hansı bir əməlin kriminallaşdırılması ilə bu əməli törədən şəxsin cəzaya məruz qalmasının labüdlüyündən və onun üçün sadalanan məhrumiyyətlərin yaranacağı səbəbindən bu əməllərin cinayət olaraq müəyyənləşdirilməsi zamanı cəza amili ciddi şəkildə nəzərə alınmalıdır. Yəni kriminallaşdırma fəaliyyətini həyata keçirərkən dövlətin qarşısına çıxan əsas

suallardan biri kimi dövlətin hansı əməllərə görə cəza müəyyənləşdirə bilməsi çıxış edir.[16]

Cəzanın kriminallaşdırma fəaliyyətində rolunu müəyyən etmək üçün ilk növbədə onun mahiyyəti və məqsədlərini müəyyənləşdirmək lazım gəlir. Hüquq elmində bu haqda bir sıra nəzəriyyələr mövcuddur. Ekspressivist və retributivist nəzəriyyənin tərəfdarları fərqli yöndən cəzanın tətbiqinin əsasında ictimai qınağın olduğunu təsdiqləyirlər. Belə ki, ekspressivist nəzəriyyəyə görə cəza qınayıcı xüsusiyyətə malik olduğundan cəzanın tətbiq edilməsi əsasları ictimai qınağın tətbiq edilməsinin əsasları kimi göstərilir. Retributivist nəzəriyyənin tərəfdarları cəzanı törədilmiş əmələ görə qisas tədbiri kimi xarakterizə etdiyindən cəzaya məruz qalan şəxsin bu cəzanın tətbiqiylə yaranan məhrumiyyətlə yanaşı ictimai qınaqdan da əziyyət çəkdiyini bildirirlər. Bu fikirlərin əksinə olaraq heç də əxlaqi baxımdan bütün yanlış əməllərin cəzaya məruz qalmasının düzgün olmadığının, əmələ cəza vasitəsilə cavab verilməsi üçün bu əməlin sadəcə yanlış yox, ümumi baxımdan yanlış olması əsas gətirilir. Yəni, bu əməli törədən şəxsin cəzaya məruz qalmasında onun bu əmələ görə sadəcə cavabdehlik deyil, eyni zamanda dövlət qarşısında cavabdehlik daşıması əsas şərtdir. Cəzanın qınayıcı funksiyasının kriminallaşdırma fəaliyyətində dövlət tərəfindən ciddi qınağa məruz qalmalı əməlin müəyyənləşdirilməsi istiqamətində rolu olsa da, əməl kriminallaşdırılarkən cəzanın cinayət sayılacaq əməlin qınanmasının zəruriliyi baxımından deyil, məhz hansı əməlin cinayət olaraq cəzaya məruz qalmasının müəyyənləşdirilməsinə istiqamət verdiyi bildirilir.[17] Bundan əlavə utilitar nəzəriyyə tərəfdarları cəzanın çəkindirici funksiyasını əsas gətirərək retributivistlərin əksinə olaraq onun primitiv qisas almaq məqsədi daşımadığını və ictimai faydalı məqsədə malik olduğunu bildirirlər. Digər tərəfdən cəza institutunun ümumilikdə utilitar, fərdlərə yönəldikdə isə retributivist məqsəd daşımasına dair fikir mövcuddur.[18] Cəzanın tədbir olaraq faydalılığı konsequensializm və instrumentalist nəzəriyyələr tərəfindən də izah olunur. Birinci nəzəriyyəyə görə hərəkətin doğru və ya yanlış olması onun səbəb olduğu nəticələrlə müəyyənləşdirilir. İnstrumentalist nəzəriyyə cəzaya malik olduğu yaxşı nəticələrə görə bəraət qazandırmaqla, konsequensializmdən fərqli olaraq hərəkətin nəticələrinin onun doğru və ya yanlış olmasına dəlalət etmədiyini bəyan edir.[19]

AR cinayət qanunvericiliyinə əsasən cəza sosial ədalətin bərpası, məhkumun islah edilməsi və həm məhkumlar, həm də başqa şəxslər tərəfindən yeni cinayətlərin törədilməsinin qarşısını almaq məqsədi daşıyır.

[16] Husak, ss. 77-88
[17] Tadros, ss. 4-8
[18] Malcolm Thorburn, *Criminal Law as Public Law*, Criminal Law and Public Theory, Part I, 25 (2011)
[19] Tadros, s. 8

Müddəadan da aydın olduğu kimi sadalanan nəzəriyyələr cəzanın məqsədlərinin müəyyənləşdirilməsində bizim qanunvericiliyimiz tərəfindən də əsas götürülüb. Belə ki, sosial ədalətin bərpası və məhkumlarla yanaşı digər şəxslər tərəfindən cinayətlərin törədilməsinin qarşısının alınması cəzanın ictimai faydalılığını, onun çəkindirici funksiyasını, məhkumun islah edilməsi, onun dövlət tərəfindən törətdiyi əmələ görə məhrumiyyətlərə və qınağa məruz qalmasını və bu yolla etdiyi əməlin mahiyyətini dərk edərək gələcəkdə bu tipli əməllərdən çəkinməsini ehtiva edir.

Beləliklə, cəzanın cinayət hüququnun vəzifələrinin və funksiyalarının həyata keçirilməsində mühüm rolunu nəzərə alaraq dövlət kriminallaşdırılma fəaliyyətini həyata keçirərkən cinayət hesab ediləcək əməli törədən şəxsin cəzaya məruz qalacağını göz önünə gətirməli, cəzanın törədilən əmələ proporsionallığına diqqət ayırmalı[20] və törədilməsinə görə cəza nəzərdə tutulacaq əməlin həqiqətən də belə ciddi məcburiyyət tədbirinə layiq olub-olmadığına fikir verməlidir. Əks halda daha az ictimai təhlükəliliyə malik olan əmələ görə vətəndaşların cəzaya məruz qalması cəzanın məqsədlərinin əksinə olaraq həm şəxsin özü, həm də ictimaiyyət üçün mənfi nəticələrə səbəb ola (məsələn, şəxsin layiq olmadığı halda azadlığından məhrum edilməsi halında cəzaçəkmə müəssisələrində cinayətkar fəaliyyətə vərdiş etmiş şəxslərlə yanaşı cəza çəkməsi nəticəsində cinayətkar mühitə cəlb olunması), cinayət hüququnun vəzifələrinin layiqincə yerinə yetirilməməsi ilə nəticələnə bilər.

## III. Cinayət hüquqi tənzimləmənin digər hüquqi tənzimləmələrdən fərqi

Hüquq qaydasının zəruriliyini şərtləndirən amillərdən biri onun zərərli fəaliyyətin qarşısını almasıdır.[21] Zərərli davranışla mübarizə aparan hüquq sahələrindən biri kimi cinayət hüququnun inzibati və delikt hüququndan fərqləndirən xüsusiyyətlərinin müəyyənləşdirilməsi zəruridir.

Ümumi hüquq sahəsi kimi cinayət hüququnu xüsusi hüquq sahəsindən fərqləndirən əsas xüsusiyyətlərdən biri onun hüqazidd hərəkətə görə fərqli xarakterli tədbir müəyyən etməsidir. Delikt hüququ cinayət hüququndan fərqli olaraq cəzalandırma deyil, əvvəlki vəziyyətin bərpası və kompensasiya etmək məqsədi daşıyır.[22] Əlavə olaraq cinayət hüquq normalarının qadağanedici xarakteri, ifadə üsulu da onun fərqləndirici xüsusiyyətlərindən hesab olunur.[23] İnzibati hüquqla cinayət hüququnun fərqlərinə gəldikdə isə cəzaların yalnız məhkəmələr, inzibati sanksiyaların isə digər dövlət orqanları

[20] Husak, s. 83

[21] Katarina Svatikova, *Economic Criteria for Criminalization: Why Do We need The Criminal Law?*, Rotterdam Institute of Law and Economics (RILE) Working Paper Series No.2008/12, s. 3

[22] *Yenə orada*, s. 13

[23] Coffee JR, s. 225

tərəfindən də tətbiq edilə bilməsi[24], cəzanın yaratdığı qınayıcı effekt[25] və məhkumluq bu iki tənzimetməni fərqləndirir. Bundan əlavə törədilən əməlin cəza vasitəsilə qadağan edilməsi cinayət hüququnun daha yüksək tərbiyəedici rola malik olmasının göstəricisidir.[26]

Beləliklə, hər hansı bir əməlin cinayət sayılması üçün onun həcmcə böyük zərərə səbəb olması, bu cür əməllərin qarşısının alınmasında cinayət hüquqi vasitələrin effektivliyi, bu əməlin kriminallaşdırılmasının cinayət hüququnun məqsədlərinə uyğunluğu kimi amillər nəzərə alınmalıdır.

## Nəticə

Daima yenilənən iqtisadi, sosial, siyasi münasibətlərin iştirakçılarının hüquqlarının müdafiəsi, bu münasibətlərin inkişafı üçün təhlükəsiz mühitin formalaşdırılmasında cinayət hüququnun xüsusi rolunu nəzərə alsaq, kriminallaşdırılma və dekriminallaşdırılma fəaliyyəti olduqca əhəmiyyətli rola malikdir. Odur ki, hər hansı yeni bir əməlin kriminallaşdırılması və ya dekriminallaşdırılması zamanı cinayət hüququnun təbiətini müəyyənləşdirən və onu digər hüquq sahələrindən fərqləndirən xarakterik xüsusiyyətlər nəzərə alınmalı, əməlin cinayət hesab olunması üçün dövlətin məhz cinayət hüquqi məcburetmə vasitəsilə qorumaqda maraqlı olduğu obyektlərə qəsd etməsində ifadə olunan ictimai təhlükəlilik, əməlin mahiyyətinin onu törədən şəxsi cəzanın məruz qoyacağı məhrumiyyətlərə, onun qınayıcı effektinə kifayət qədər əsas verməsi və bu xarakterli əməllərin qarşısının alınmasında yalnız cinayət hüququnun tərbiyəedici funksiyasının tətbiq edilə bilməsi kimi meyarlar araşdırılmalıdır. Bunun əksi olaraq sadalanan meyarlara uyğun gəlməyən əməllərin cinayət hesab edilməsi və ya mahiyyətcə ictimai münasibətlərə ciddi surətdə xələl yetirən əməllərin əsassız olaraq dekriminallaşdırılması cinayət hüququnun funksiya və vəzifələrinin effektiv yerinə yetirilməməsi, vətəndaşların hüquqlarının bu yolla pozulması onlarda hüquq qaydasına etinasızlıqla yanaşmaq kimi arzuolunmayan nəticələrə səbəb ola bilər.

[24] Svatikova, s. 15
[25] *Yenə orada*, s. 18
[26] Coffee JR, s. 224